

## SEVİNDİK NƏSİBOĞLU

**Sevindik Nəsib oğlu Əliyev** 2008-ci ildə İmişli şəhərində anadan olmuşdur.

Hazırda Xırdalan şəhər 9 saylı Misir-Ərəb təmayüllü tam orta məktəbin VI sinif şagirdidir.

"Abşeron təhsili", "Respublika xəbərləri", "Azərbaycan müəllimi", "Mən birinciyəm", "Kredo" və s. ictimai-ədəbi qəzetlər; "Söz" və "Kəpənək" jurnalları və s. mətbu orqanlar müəllifin yaradıcılığına müraciət etmişdir. Həmçinin, "Azərbaycan XXI əsrə istedadlarla" elmi-publisistik toplusunda həyatı haqqında üç səhifəlik yazı yazılmışdır.

"Dünyamsan Azərbaycan" (2018), "Hərdən uçmaq istəyirəm" (2018), "Ulu Naxçıvanım"(2020) kitablarının müəllifidir.

"Kredo" qəzetinin redaksiya heyətinin üzvü və ictimai müxbiridir.





## ŞUŞA

Şuşanın saf, təmiz havası vardı,
Qanadsız uçardı ağ buludları...
Yazın əvvəlində yağış yağardı,
Kişnəyib qaçardı köhlən atları!

Büsat qurulardı Cıdır düzündə,
Tonqal qalanardı Novruz axşamı...
Şölə bərq vurardı bir qız üzündə
Coşanda Cabbarın[3] təbi, ilhamı!

Kuzədə, sənəkdə su daşıyardı
İsa bulağından qızlar həvəslə...
Muğam zəngulәsin dağlar yayardı
Dalğalı biçimdə, fərqli nəfəsdə!

Şuşa gözəl idi, gözəldən gözəl,
Buludlar örpəyi, meşələr donu...
Uzandı bəxtinə qara, çirkli əl,
İlahi, bu zülmün yoxdurmu sonu?!

"Daşaltı" kölgədi tariximizdə,
Düşmənə göz dağı Malıbəylidi...
Cəsurlar, igidlər yetişib bizdə,
Hər biri aslandı, şir ürəklidi!

3 Cabbar Qaryağdıoğlu nəzərdə tutulur.

Ey əsgər, tətiyi sən sıxmağınla,
İnşallah, Şuşamız azad olacaq...
İşğalçı, fəxr etmə ev yıxmağınla,
Qarabağda hər yer abad olacaq!

## QARABAĞ MARŞI

Xocalıdır, Qarabağdır –
Ən yaralı yerimiz...
Səfərbərik, ana Vətən,
Hər zaman hər birimiz!

Ermənilər faşistlərin
Oxşarı, bir tayıdır...
İşğal, qarət bu kəslərin
Sanki tale payıdır!

Koroğlunun, Cavanşirin
Nəvəsi gücsüz olmaz...
Təpəgöz Oğuzu qırsa,
Basat qılıncsız olmaz!

Biz də Basat kimi olaq,
Təpəgözləri qıraq...
Ermənini Qarabağdan
Gərək biryolluq qovaq!





## AZƏRBAYCANIMIZSAN

Sən bizim ürəyimiz,
Sən bizim canımızsan...
Zirvələri fəth edən
Azərbaycanımızsan!

Tarixi səs-soraqlı,
Qobustanı növraqlı...
Azıxı daş çıraqlı
Azərbaycanımızsan!

Ərkli, Gəmiqayalı,
Gözəlləri həyalı...
Bayrağı üç boyalı
Azərbaycanımızsan!

Düşməni ağlar qoyan,
Dostlara arxa, həyan...
Oğlu, qızı qəhrəman
Azərbaycanımızsan!

# AYRI DÜŞDÜK QARABAĞDAN

Şuşam muğamsız qalıbdır,
Ayrı düşdük Qarabağdan!
Cıdır düzün çən alıbdır,
Ayrı düşdük Qarabağdan!

Xankəndinin yolu bağlı,
Xocalı sinəsi dağlı...
Əsgəran döyüş soraqlı.
Ayrı düşdük Qarabağdan!

Xəzriylə söndü şamımız,
İşğal oldu Ağdamımız...
İntizardayıq hamımız,
Ayrı düşdük Qarabağdan!

Laçın, Kəlbəcər qəmlidir,
Zəngilanım ələmlidir...
Xocavənd gözü nəmlidir,
Ayrı düşdük Qarabağdan!

İgidlər ucaltsın səsin,
İşğalçının verək dərsin...
Bir daha heç kəs deməsin:
– Ayrı düşdük Qarabağdan!





# AYDIN

*(C.Cabbarlının "Aydın" əsərinin yazılmasının 100 illiyinə və oğlu Aydın Cabbarlıya ithafən)*

Surxayın dostu, sirdaşı,
Cəfərə ad-sandır – "Aydın".
Köhnə adətlərə qarşı
Qiyamdır, üsyandır – "Aydın".

Şərifzadə coşan-daşan,
Odur Aydına yaraşan...
Qatı zülmətlə çarpışan
Mübariz insandır Aydın.

Sona baxır, Cəfər baxır,
İnsan zala seltək axır...
Gültəkin səhnəyə çıxır,
Özgə növcavandır Aydın.

Dövlət bəylər, Balaxanlar,
Aydınları çətin anlar...
Siz ey haqsevər insanlar,
Odlu bir vulkandır Aydın.

Müəllifi öyülsə də,
Susannası söyülsə də...
Ona dəli deyilsə də,
"Aydın"ı duyandır Aydın.

Yazıldı bir yaz çağında,
Cümhuriyyət sorağında...
İncəsənət bayrağında
Silinməz nişandır – "Aydın",
Solmaz gülüstandır – "Aydın".